# PETERİN BİRİNCİ MƏKTUBU

## GİRİŞ

*«Peterin Birinci Məktubu»* Asiya vilayətinin şimal bölgəsinə yayılmış «Ruh tərəfindən təqdis olunan» (1:2) məsihçilərə ünvanlanıb. Məktubun yazılmasının məqsədi imana görə təqiblərə və iztirablara məruz qalan məsihçiləri ruhlandırmaqdır. Peter oxucularına İsa Məsihin Müjdəsini, Onun ölümünü, dirilməsini və vəd olunmuş zühurunu xatırladaraq onlara ümid verir. İmanlılar bunu anlayaraq iztirablara qatlanmalıdırlar. Onlar əmin olmalıdırlar ki, həqiqi imana malik olmaları üçün bu sınaqdan keçməlidirlər. Peter onları inandırır ki, «imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf» gətirəcək (1:7).

Həvari Peter bu çətin dövrdə bacı-qardaşlarını ruhlandıraraq onları Məsihə məxsus olan adamlar kimi həyat tərzi keçirməyə çağırır.

**Kitabın məzmunu:**

1:1-12 Göylərdəki irs
1:13–2:10 Müqəddəs həyata çağırış
2:11-25 Məsihçilərin qarşısında duran işlər
3:1-7 Ər-arvad münasibətləri
3:8-22 Məsihçilərin iztirab zamanı davranış tərzi
4:1-19 Məsihçi həyat tərzi
5:1-14 Ağsaqqallara öyüd-nəsihət və xudahafizləşmə

---

1 [1] İsa Məsihin həvarisi mən Peterdən seçilmiş, Pont, Qalatiya,
Kappadokiya, Asiya vilayəti və Bitinyaya yayılmış qəriblərə salam!
2 Ata Allahın qabaqcadan bilməsinə görə siz Ruh tərəfindən təqdis
olunaraq İsa Məsihə itaət etməniz və Onun qanının üzərinizə səpilməsi
üçün seçilmisiniz. Qoy lütf və sülh sizə bol-bol verilsin!

### Göylərdəki irs

3 Rəbbimiz İsa Məsihin Allahına – Atasına alqış olsun! O Öz böyük
mərhəmətinə görə yenidən doğulmamızı təmin etdi. İsa Məsihin



The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

ölülər arasından dirilməsi ilə bizi canlı ümidə, 4 çürüməz, ləkəsiz,
solmaz bir irsə qovuşdurdu. Bu irs sizin üçün göylərdə saxlanılır.
5 Siz Allahın qüdrəti ilə axır zamanda aşkar olunmağa hazır olan
xilas üçün iman vasitəsilə qorunursunuz. 6 Buna görə hal-hazırda qısa
bir müddət cürbəcür sınaqlarda kədərə düşməyə məcbur olsanız da,
hədsiz sevinirsiniz; 7 belə ki imanınızın sınaqdan keçməsi İsa Məsihin
zühurunda sizə tərif, izzət və şərəf gətirsin. Bu imanınız odla təmizlənsə
belə, fani qızıldan daha çox dəyərlidir. 8 Siz İsa Məsihi görməmisiniz,
amma Onu sevirsiniz. Hətta siz Onu indi də görmürsünüz, lakin Ona
iman edib təsvirolunmaz və izzətli sevinclə hədsiz sevinirsiniz. 9 Çünki
imanınızın nəticəsində canınızın xilasına nail olursunuz.
10 Sizə göstəriləcək lütf barəsində əvvəlcədən xəbər verən
peyğəmbərlər bu xilasa dair araşdırma və tədqiqatlar aparardı. 11 Onların
daxilində olan Məsihin Ruhu Məsihin əzabları və onlardan sonrakı
izzəti barədə əvvəlcədən şəhadət edirdi. Bunların necə və nə vaxt
gələcəyi barədə Ruhun nə göstərdiyini araşdırdılar. 12 Bu şeyləri elan
edərək özlərinə deyil, sizə xidmət etdikləri onlara açıqca göstərildi.
Müjdəni göydən göndərilmiş Müqəddəs Ruh vasitəsilə sizə yayanlar indi
həmin xəbəri sizə bildirdilər. Mələklər də bu şeyləri yaxından tanımaq
arzusundadırlar.

### Müqəddəs həyata çağırış

13 Buna görə ağlınızı toplayıb ayıq durun. Ümidinizi bütünlüklə İsa
Məsihin zühurunda sizə veriləcək lütfə bağlayın. 14 İtaətkar uşaqlar
kimi cahil ikən qapıldığınız əvvəlki ehtiraslara uymayın. 15 Amma sizi
çağıran Allah müqəddəs olduğuna uyğun olaraq siz də bütün həyat
tərzinizdə müqəddəs olun, 16 [a] necə ki yazılıb: «Müqəddəs olun, çünki
Mən müqəddəsəm».
17 Tərəfkeşlik etmədən öz əməlinə görə hər kəsi mühakimə edən
Allahı «Ata» deyə çağırdığınız üçün bu qürbət dünyadakı vaxtınızı
Allah qorxusunda keçirin. 18 Bildiyiniz kimi, siz ata-babalarınızdan irs
olaraq aldığınız puç həyat tərzindən qızıl ya gümüş kimi fani şeylərlə
deyil, 19 qüsursuz və ləkəsiz quzuya bənzəyən Məsihin qiymətli qanı
bahasına satın alınmısınız. 20 Dünya yaranmazdan əvvəl tanınmış
Məsih bu axır zamanda sizə görə zühur etdi. 21 Məsih vasitəsilə siz Onu
ölülər arasından dirildib izzətləndirən Allaha iman edirsiniz. Beləliklə,
imanınız və ümidiniz Allaha bağlıdır.
22 Həqiqətə[b] itaət edərək ürəklərinizi saflaşdırıb riyasız qardaşlıq
məhəbbətinə sahib oldunuz. Buna görə bir-birinizi var gücünüzlə səmimi
qəlbdən sevin. 23 Çünki siz çürüyən toxumdan deyil, çürüməzdən, Allahın

---

[a] **1:16** Lev. 11:44-45; 19:2 [b] **1:22** *Həqiqətə* – bəzi əlyazmalarda *Ruh vasitəsilə həqiqətə.*

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

canlı, davamlı olan kəlamı vasitəsilə yenidən doğulmusunuz. 24[c] Ona görə
ki

«Bütün bəşər ota bənzər,
Onun bütün gözəlliyi çöl çiçəyi kimidir.
Ot quruyar, çiçək tökülər,
25 Amma Rəbbin sözü əbədi qalar».

Sizə vəz olunan Müjdə sözü budur.

2 1 Beləliklə, hər cür pisliyi, hiyləni, ikiüzlülüyü, paxıllığı və hər
cür böhtançılığı üzərinizdən atın. 2 Anadan təzə olmuş çağalar
kimi pak ruhani südə susayın ki, bununla bəslənib böyüyərək
xilasa nail olasınız. 3[d] Çünki siz daddınız ki, Rəbb nə qədər
xeyirxahdır.

### Diri daş və seçilmiş xalq

4 İnsanların rədd etdiyi, amma Allahın qiymətli sayıb-seçdiyi
diri Daşa, Rəbbə yaxınlaşaraq 5 özünüz də diri daşlar kimi hörülün
ki, ruhani ev qurulsun. Orada müqəddəs kahin dəstəsi olasınız və
İsa Məsih vasitəsilə Allaha məqbul olan ruhani qurbanlar təqdim
edəsiniz. 6[e] Çünki Müqəddəs Yazıda yazılıb:

«Budur, Sionda bir daş,
Seçilmiş, qiymətli bir guşədaşı qoyuram.
Ona iman edən kəs əsla utandırılmaz».

7[f] Beləliklə, iman edən sizlər üçün bu daş qiymətlidir, amma iman
etməyənlər üçün «bənnaların rədd etdiyi daş guşədaşı olub»,
8[g] «büdrəmə daşı və yıxma qayası» da oldu. Onlar kəlama itaət
etmədikləri üçün büdrəyir və onların təyinatı budur.
9[h] Amma siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi, müqəddəs
millət, Allaha məxsus olan xalqsınız. Sizi qaranlıqdan Öz
heyrətamiz nuruna çağıran Allahın çox gözəl işlərini elan etmək
üçün seçilmisiniz. 10[i] Bir zamanlar xalq deyildiniz, amma indi
Allahın xalqısınız. Bir zamanlar mərhəmət tapmamışdınız, indi isə
mərhəmət almısınız.
11 Sevimlilər, sizə yalvarıram, cana qarşı mübarizə aparan cismani
ehtiraslardan uzaqlaşın. Çünki siz bu dünyada qərib və gəlməsiniz.
12 İmanlı olmayanların arasında yaxşı həyat tərzi sürün ki, sizi
pislik edən adamlar kimi təqsirləndirib böhtan atsalar da, yaxşı
işlərinizi müşahidə edib Allahın onlara yaxınlaşdığı gündə Onu
izzətləndirsinlər.

---

[c] **1:24-25** Yeş. 40:6-8 [d] **2:3** Zəb. 34:8 [e] **2:6** Yeş. 28:16 [f] **2:7** Zəb. 118:22
[g] **2:8** Yeş. 8:14-15 [h] **2:9** Çıx. 19:5-6; Qanun. 4:20; 7:6; 14:2; Yeş. 43:20-21; Titə 2:14
[i] **2:10** Huşə 2:23

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

### Rəhbərlərə tabe olun

13 [j]İnsanın yaratdığı hər quruma Rəbb naminə tabe olun; həm
ali hakimiyyət olduğuna görə padşaha, 14 həm də pislik edənləri
cəzalandırmaq, yaxşılıq edənləri də tərifləmək üçün onun tərəfindən
göndərilən valilərə tabe olun. 15 Çünki Allahın iradəsi yaxşılıq edərək
axmaqların cahilliyini susdurmanızdır. 16 Azad insanlar kimi yaşayın.
Amma azadlığınızı pislik etmək üçün bəhanə saymayıb Allahın qulları
olaraq yaşayın. 17 Hamıya hörmət edin. İmanlı bacı-qardaşları sevin,
Allahdan qorxun, padşaha hörmət edin.
18 Ey xidmətçilər! Yalnız xeyirxah və mülayimlərə deyil, zalım
ağalarınıza da tam ehtiramla tabe olun. 19 Əgər biri Allah qarşısındakı
vicdan naminə, haqsız yerə əzab çəkib kədərə tab gətirirsə, bu, tərifə
layiqdir. 20 Axı etdiyiniz günahlara görə döyülsəniz və buna dözsəniz,
bu sizə nə şərəf gətirər? Amma siz yaxşılıq etdiyiniz üçün əzab çəkib
dözsəniz, bu Allah qarşısında tərifə layiqdir. 21 Siz məhz bunun üçün
çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu
ki, siz də Onun izi ilə gedəsiniz.

22 [k]O heç bir günah etmədi,
Ağzından hiylə sözü çıxmadı.
23 [l]Onu söydülər, O isə cavabında söymürdü,
Əzab çəkərək heç kimi hədələmirdi,
Əksinə, ədalətli Hakimə Özünü təslim etdi.

24 [m]O, bədəni çarmıxa çəkilərək[n] bizim günahlarımızı Öz üzərinə götürdü
ki, biz günaha münasibətdə ölüb salehlik üçün yaşayaq. Onun yaraları ilə
siz şəfa tapdınız. 25 [j]Hamınız qoyun kimi yolunuzu azmışdınız, indi isə
canınızın Çobanına və Nəzarətçisinə tərəf döndünüz.

### Ər-arvad münasibətləri

3 1-2 [p]Ey arvadlar, siz də eyni tərzdə öz ərlərinizə tabe olun. Əgər
onlardan bəzisi Allahın kəlamına itaət etməzsə, siz arvadların
ismətli, ehtiramlı həyat tərzinizi müşahidə etsinlər; beləcə onları dinməz-
söyləməz qazana bilərsiniz. 3 [q]Qoy sizin bəzəyiniz saçlarınızı hörüb qızıl
bər-bəzək taxmaq və gözəl geyimlər geyməklə zahiri şeylər deyil, 4 gizli
olan daxili varlığınız, həlim və sakit ruhun solmayan gözəlliyindən ibarət
olsun. Bu, Allahın qarşısında çox dəyərlidir. 5 Çünki qədim zamanlarda
Allaha ümid bağlayan müqəddəs qadınlar öz ərlərinə tabe olaraq belə
bəzənərdilər. 6 [r]Məsələn, Sara İbrahimi «ağam» deyə çağıraraq ona

---

[j] **2:13** Rom. 13:1 [k] **2:22** Yeş. 53:9 [l] **2:23** Yeş. 53:7 [m] **2:24** Yeş. 53:5 [n] **2:24** *Çarmıxa çəkilərək* – hərfi tərcümədə *ağacdan asılaraq.* [j] **2:25** Yeş. 53:6 [p] **3:1-2** Ef. 5:22; Kol. 3:18 [q] **3:3** 1Tim. 2:9-10 [r] **3:6** Yar. 18:12

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

itaət edirdi. Siz də yaxşılıq edib heç bir qorxuya qapılmasanız, Saranın
övladları olursunuz.
7[s]Ey ərlər, siz də bunun kimi arvadlarınızla ədəblə, onların daha zərif
varlıqlar olduğuna uyğun davranın. Sizinlə birlikdə Allahın lütf etdiyi
həyatı irs olaraq aldıqlarına görə onlara hörmət göstərin ki, dualarınıza
maneçilik törədilməsin.

### Salehlik uğrunda əziyyət çəkmək

8 Nəhayət, hamınız həmfikir olun. Başqalarının hər bir hissinə şərik
olun, bir-birinizi qardaşlıq məhəbbəti ilə sevin, rəhmli və itaətkar
olun. 9 Pisliyə pisliklə, söyüşə də söyüşlə cavab verməyin, əksinə xeyir-
dua edin. Çünki bunun üçün çağırılmısınız ki, xeyir-duaları irs olaraq
alasınız. 10[t]Çünki:

«Kim həyatdan kam almaq,
Xoş gün görmək istəyirsə,
Qoy dilini şərdən,
Ağzını hiylə danışmaqdan qorusun,
11 Qoy şərdən çəkinib yaxşılıq etsin,
Qoy sülhü axtarıb ardınca getsin!
12 Çünki Rəbbin gözü salehlərin üzərindədir,
Qulaqları onların fəryadlarına açıqdır.
Amma Rəbbin üzü şər işlər görənlərə qarşıdır».

13 Əgər yaxşılıq etməyə səy göstərsəniz, sizə kim pislik edər? 14[u]Amma
salehlik uğrunda əzab çəksəniz belə, siz bəxtiyarsınız. İnsanların
hədə-qorxu gəlməsindən qorxmayın və lərzəyə düşməyin. 15 Lakin
Məsihi[v] Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid
barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır
olun. 16 Vicdanınızı təmiz tutaraq bunu həlimliklə və ehtiramla edin ki,
Məsihdə olan yaxşı davranışınızı təhqir edənlər sizə atdıqları[w] böhtandan
utansınlar. 17 Əgər Allahın iradəsi budursa, yaxşılıq etdiyi üçün əzab
çəkmək pislik etdiyi üçün əzab çəkməkdən yaxşıdır. 18 Çünki saleh olan
Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə
əzab çəkdi[x] ki, sizi Allahın hüzuruna gətirsin. O cismən edam edilmiş,
amma ruhən həyata qovuşmuşdur. 19 O ruhən gedib zindandakı ruhlara
da vəz etdi. 20[y]Bunlar bir vaxtlar, Allah Nuhun gəmi düzəltdiyi dövrdə
səbirlə gözlədiyi vaxt itaətsiz idi. O gəmidə isə az adam, başqa sözlə,

---

[s] **3:7** Ef. 5:25; Kol. 3:19 [t] **3:10-12** Zəb. 34:12-16 [u] **3:14-15** Yeş. 8:12-13; Mat. 5:10
[v] **3:15** *Məsihi* – bəzi əlyazmalarda *Allahı.* [w] **3:16** *Sizə atdıqları* – bəzi əlyazmalarda *sizi pislik edən adamlar kimi təqsirləndirib atdıqları* (1Pet. 2:12). [x] **3:18** *Əzab çəkdi* – bəzi əlyazmalarda *bizim uğrumuzda öldü,* bəzilərində isə *sizin uğrunuzda öldü.*
[y] **3:20** Yar. 6:1–7:24

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

səkkiz nəfər sudan sağ-salamat çıxdı. 21 Bu nümunəyə uyğun olaraq
vəftiz indi sizə İsa Məsihin dirilməsi ilə xilas gətirir. Vəftiz cismani
çirki yumaqdan ötrü deyil, təmiz vicdanla Allah qarşısında söz vermək
üçündür. 22 İsa Məsih göyə qalxıb və Allahın sağındadır. Mələklər,
hakimlər və qüvvələr də Ona tabedir.

### Allahın iradəsinə görə yaşamaq

4 1 Beləliklə, Məsih cismən[z] əzab çəkdiyinə görə siz də eyni düşüncələrlə
silahlanın. Çünki cismən əzab çəkən günahdan vaz keçmişdir. 2 Nəticədə
cisimdə qalan vaxtını isə artıq bəşəri ehtiraslara görə deyil, Allahın iradəsinə
görə yaşayır. 3 Siz keçmiş vaxtlarda imanlı olmayanların istəklərini yerinə
yetirib həyatınızı əxlaqsızlıqla, ehtirasla, əyyaşlıqla, eyş-işrətlə, içib azğınlıq
etməklə, iyrənc bütpərəstliklə keçirdiyiniz yetər! 4 İmanlı olmayanlar onlarla
birlikdə eyni cür pozğunluğa uymadığınıza görə təəccüb edir, sizə şər
atırlar. 5 Onlar diriləri və ölüləri mühakimə etməyə hazır olan Allaha cavab
verəcəklər. 6 Çünki bu səbəbə görə Müjdə ölülərə də yayıldı ki, cismən onlar
bütün insanlar kimi mühakimə olunduğu halda, ruhən Allah kimi yaşasınlar.
7 Hər şeyin sonu yaxındır. Beləliklə, ağıllı-kamallı olun və dua etmək
üçün ayıq durun. 8 [a]Hər şeydən əvvəl, bir-birinizi can-dildən sevin,
çünki «məhəbbət çox günahı örtər». 9 Şikayət etmədən bir-birinizə
qonaqpərvərlik göstərin. 10 Hər kəs Allahın çoxcəhətli lütfünün yaxşı
idarəçiləri kimi aldığı ənama görə bir-birinə xidmət etsin. 11 Kim
danışırsa, Allahın sözlərini danışan kimi danışsın. Kim xidmət edirsə,
Allahın verdiyi qüvvətlə xidmət etsin. Beləcə Allah hər şeydə İsa Məsih
vasitəsilə izzətlənəcək. İzzət və qüdrət əbədi olaraq İsa Məsihindir. Amin!

### Məsih uğrunda əzab çəkmək

12 Sevimlilər, sizi sınamaq üçün aranızda baş verən odlu imtahana
sanki başınıza gələn qəribə bir iş kimi təəccüb etməyin. 13 Əksinə, Məsihin
əzablarına nə qədər şərik olursunuzsa, o qədər sevinin ki, Onun izzətli
zühurunda hədsiz sevinəsiniz. 14 Məsihin adına görə təhqir olunsanız, siz
nə bəxtiyarsınız! Çünki Allahın izzətli Ruhu üzərinizdə qalır.[b] 15 Lakin heç
biriniz qatil, oğru ya başqa cür cinayətkar kimi yaxud başqalarının işinə
qarışan şəxs kimi əzab çəkməsin. 16 Amma bir insan məsihçi kimi əzab
çəkirsə, qoy bundan utanmasın, bu adı daşıyaraq Allahı izzətləndirsin.
17 Çünki mühakimənin Allahın ev xalqından başlandığı vaxt gəlir. Əgər
mühakimə əvvəl bizdən başlanarsa, Allahın Müjdəsinə itaət etməyənlərin
sonu necə olacaq? 18 [c]Əgər saleh belə, çətinliklə xilas olursa, bəs allahsız

---

[z] **4:1** *Cismən* – bəzi əlyazmalarda *bizim üçün cismən.* [a] **4:8** Sül. 10:12; Yaq. 5:19-20
[b] **4:14** *Qalır* – bəzi əlyazmalarda *qalır. Digərlərin arasında söyülür, sizin aranızda izzətlənir.*
[c] **4:18** Sül. 11:31

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

və günahkar necə olacaq? 19 Bunun üçün qoy Allahın iradəsinə görə əzab
çəkənlər yaxşılıq edərək həyatlarını sadiq olan Yaradana həvalə etsinlər.

### Allahın sürüsü

5 1 [d]Ey aranızda olan ağsaqqallar! Mən də sizin kimi ağsaqqal və
Məsihin əzablarının şahidiyəm, zühur edəcək izzətə də şərikəm.
Sizə yalvarıram, 2 Allahın sizə həvalə etdiyi sürüsünü otarın. Ona zorla
yox, könüllü və Allahı razı salan[e] tərzdə, haqsız qazanca həris olmadan,
həvəslə nəzarət edin. 3 Sizə tapşırılanlar üzərində ağalıq etməyin, amma
sürüyə nümunə olun. 4 Baş Çoban zühur etdiyi zaman siz solmayan izzət
tacı alacaqsınız.
5 [f]Eyni ilə, siz də, ey gənclər, ağsaqqallara tabe olun. Hamınız bir-
birinizə itaətkarlıq[g] göstərin. Çünki «Allah məğrurlara qarşıdır,
itaətkarlara isə lütf göstərər». 6 [h]Allahın qüdrətli əli altında özünüzü
aşağı tutun, onda Allah sizi vaxtı çatanda ucaldacaq. 7 [i]Bütün qayğı
yükünüzü Ona ötürün, çünki O sizin qayğınıza qalır.
8 Ayıq durun, oyaq olun. Çünki düşməniniz olan iblis nərildəyən və
kimisə aşırmaq istəyən aslan kimi dolaşır. 9 Möhkəm imanla ona qarşı
durun. Bilin ki, bütün dünyada bacı-qardaşlarınız da eyni cür əzab
çəkirlər. 10 Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə
Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi
bərpa edəcək, möhkəmlədəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ
oturdacaq. 11 Qüdrət[j] əbədi olaraq Onun olsun! Amin.

### Cəmiyyətə salamlar

12 [k]Bu qısa məktubu etibarlı saydığım qardaşımız Sila vasitəsilə sizə
yazıram. Sizi həvəsləndirərək şəhadət etdim ki, Allahın həqiqi lütfü
budur. Ona bağlı qalın.
13 [l]Sizin kimi seçilmiş Babildəki cəmiyyət və oğlum Mark da sizi
salamlayır. 14 Bir-birinizi məhəbbətlə öpərək salamlayın.
Məsihdə olan hamınıza sülh olsun!

---

[d] **5:1-3** Yəh. 21:15-17 [e] **5:2** *Və Allahı razı salan* – bəzi əlyazmalarda bu sözlər yoxdur. [f] **5:5** Sül. 3:34 [g] **5:5** *İtaətkarlıq* – bəzi əlyazmalarda *tabe olaraq itaətkarlıq.* [h] **5:6** Mat. 23:12; Luka 14:11; 18:14 [i] **5:7** Zəb. 55:22 [j] **5:11** *Qüdrət* – bəzi əlyazmalarda *İzzət və qüdrət.* [k] **5:12** Həv. 15:22,40 [l] **5:13** Həv. 12:12,25; 15:37-39; Kol. 4:10; Flm. 23-24

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation